# ŞƏHİDLƏRİN İLDÖNÜMÜ

O sitəmli günlərin,
Dərdli, qəmli günlərin
Üstündən gözüyaşlı
Gəldi bir il də keçdi.
Bu günlərin acısı
Min-min könüldən keçdi.
Divarları, daşları
Güllə yaralı evlər
Durub o cinayətin
Qanlı şahidi kimi.
Qələmimdən qan damır,
Necə yazım dərdimi?
Necə deyiın qırdılar,
Mənim min-min mərdimi.
Yudu yağan yağışlar
Bakı küçələrinə
Axıb sellənən qanı.
Ziyarətgaha döndii
Şəhidlər qəbristanı.
Çıx bu qəmdən, bu yasdan,
Sən ey Odlar elimiz!
Qoy silinsin üzlərdən
Qəm yaşları selimiz!
Matəm ili deyildir
Qəhrəmanlıq ilimiz.
Ayaq üstdə möhkəm dur,
Nə qədər ki, sən varsan!
Yıxılsan tapdanarsan!
Ey od, işıq məbədi!
Bu işığın odunla
Döyüşdəsən əbədi!

1991

Mirvarid Dilbazi